ENZA ZADEN

TƏRƏVƏZ TOXUMLARI KATALOQU

Azərbaycan 2019 | 2020

Enza Zadenin hibridləri Sizin müvəffəqiyyətinizin rəhnidir!

Oleg Gladouniak

Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Direktor,
“Enza Semence Russia”-nın Baş Direktoru

Giriş

Hörmətli Həmkarlar!

2018-ci ildə özünün 80 illiyini qeyd edən Enza Zaden şirkəti, uzun illərdir tərəvəz məhsulları toxumlarının seleksiyası, istehsalı və satışı sahəsində dünya liderlərindən biri kimi qəbul edilmişdir.
2015 və 2016-cı illərdə Enza Zaden nüfuzlu «Hillenraad 100» nəşrinin Hollandiyanın kənd təsərrüfatı sahəsindəki 100 aparıcı şirkətinin reytinq cədvəlinə başçılıq edib. Bu nüfuzlu mükafat Hollandiyanın kənd təsərrüfatı sahəsində bir növ “Oskar”-ı hesab edilir.
2016-cı il aprelin 7-də Family Business Foundation (Ailə Biznesi Fondu) Hollandiyanın ən yaxşı ailə şirkəti illik mükafatını Enza Zaden-ə təqdim edib.
Bu bizens artıq üçüncü nəsildir ki inkişaf edir.
1800-dən çox əməkdaşı olan bu şirkət hal hazırda yüksək ixtisaslı mütəxəssislərə, effektiv texnologiyaya və müasir avadanlıqlara yatırım etməkdə davam edir.
Keyfiyyət və innovasiya şirkətin fəaliyyətinin əsas istiqamətidir.
Bizim məqsədimiz - sağlamlığa faydalı olan müxtəlif tərəvəzləri istehlakçıya təqdim etməkdir.
Biz multilokal yanaşma tətbiq edərək və bizim yerli bazarlardakı müştərilərimizlə sıx əlaqədə olaraq istehlakçıların, istehsalçıların və ticarət şəbəkələrinin tələblərinə maksimum uyğun olan hibrid və sortlar yaratmağa çalışırıq.
Bizim məhsulların üstünlüyü və əla keyfiyyəti sayəsində təcihzat zəncirinin bütün iştirakçıları qazanır.
Enza Zadenin çeşidi aralarında əsas olaraq pomidor, bibər, xiyar, kahı, soğan, yemişin olduğu 1100-dən çox hibrid və 24-dən çox tərəvəz bitkilərinin sortlarından ibarətdir.
Şirkət 43 elmi-tədqiqat məntəqələrinə və ticarət nümayəndəliklərinə, həmçinin 25 ölkədə 3 birgə müəssisəyə sahibdir.
Bu gün Enza Zaden dünyada ən sürətlə böyüyən şirkətlərdən biridir.
Hər il şirkət öz gəlirinin 30%-ni müasir kənd təsərrüfatı texnologiyalarına və elmi araşdırmalara yatırır.
Biz daim hadisələrin mərkəzində olmağa, bazarın tələblərini izləməyə və onun inkişafının istiqamətlərini öncədən görməyə çalışırıq.
Yaradıcı yanaşma, təcrübə və bizim seleksiyaçılarımız və elmi-tədqiqat mərkəzlərinin birgə işi, həmçinin müasir texnologiyalardan istifadə, seleksiyada uğur qazanmaq, qısa zaman ərzində yüksək keyfiyyətdə ən yeni sortlar və hibridlər yaratmağa və istehsalçılara təqdim etməyə imkan verir.
Biz ən yaxşı keyfiyyətdə toxumlarla təchizatı öz başlıca vəzifəmiz hesab edirik.
Bizim müştərilərimizin toxumlara olan tələbatlarını vaxtında təmin etmək üçün dünyanın hər yerində istehsal sahələrini təşkil edirik.
Bizim toxum istehsalı şöbəsi toxumların cücərmə qabiliyyətini, sort təmizliyi və xəstəliklərə yoluxmanın yeni test üsullarını daim hazırlayır və tətbiq edir.
Müxtəlif ölkələrdə çoxsaylı sınaqlar keçirməklə biz diqqətlə bu və ya digər bazara daha uyğun seleksiya materialını seçirik.
Yerli istehsalçılarla sıx əməkdaşlıq etməklə biz bazarın tendensiyalarını nəzərə alırıq, bəzi hallarda isə özümüz gələcək inkişafın vektorunu müəyyən edirik.
Nəticədə biz yerli istehsalın şərtlərini və istehlakçıların istəklərini maksimum dərəcədə qarşılayan ən yaxşı hibridlər və sortlar yaradırıq.
Açıq sahədə və polietilen örtüklü istixanalarda becərilən Enza Zaden hibridləri və sortları Azərbaycan istehsalçılarına çoxdan məlumdur.
“Rally”, “Berberana”, “Agilis” və “Lojain” pomidorlarının, “Picolino” və “Sedrik” xiyarlarının, “Vedrana” və “Shakira” bibərlərinin, “Selesta” turpunun hibridləri haqlı olaraq peşəkarlar tərəfindən yüksək qiymətləndirilib.
Məmnuniyyətlə Sizə Azərbaycan bazarı üçün artıq tanış çeşidlərlə yanaşı açıq sahədə və polietilen örtüklü istixanalarda becərilən ən yeni seleksiya nailiyyətlərini yeni kataloqda təqdim edirik.
Yeni hibridlər həm Enza Zaden üçün ənənəvi olaraq güclü məhsul qruplarında: irimeyvəli pomidor, kubşəkilli və konusşəkilli növlü şirin bibər, kornişon xiyar, turp, kahı, balqabaq, ədviyyat tamlı bitkilər, həm də yeni tanınmış seleksiya istiqamətlərində çəhrayı rəngli və determinant pomidor, soğan, qabaq, badımcan, gül kələmi, və ispanaq təqdim olunublar.
Bu hibridlərin və növlərin çoxu artıq MDB, Şərqi və Qərbi Avropa ölkələrində uğurla becərilir.

Enza Zaden komandası

Mündəricat

Giriş	3
Mündəricat	4
Vitalis – orqanik əkinçilik üçün toxumlar	5
Pomidor	7
Xiyar	23
Bibər	27
Soğan	33
Badımcan	34
Qabaq	35
Yemiş	36
Qarpız	37
Brokkoli	38
Gül kələmi	39
Qırmızı turp	40
Boranı	41
Kahı	42
Göyərtilər	45
Saxtakarlıqdan qorunun	46
Davamlılıq	46
General Terms and Conditions of Sale (Enza Zaden's ref. no. EX08)	48

Vitalis – orqanik əkinçilik üçün toxumlar

Organik istehsal dünyanın ən sürətli inkişaf edən trendlərindən biridir. Son 16 il ərzində orqanik istehsal üçün ərazilərin sahəsi 4 dəfə artmış, dördə üçündən çoxu inkişaf edən ölkələrdə yerləşən 2 milyondan cox organik istehsalçıya isə sertifikat verilmişdir. Orqanik kənd təsərrüfatının aktiv inkişafı tendesiyası dünyanın 170-dən çox ölkəsində aktualdır və orqanik istehsala dünya bazarlarında tələbatın artması ilə bağlı olaraq bu rəqəm hər il artır.

Azərbaycanda orqanik tərəvəzçiliyin inkişafı formalaşma mərhələsindədir yerləşir. Hal-hazırda qanunvericilik bazası movcuddur, sertifikatlaşdırma prosesi gedir və beynəlxalq standartlara uyğun sertifikatlı təqribən 30-a yaxın istehsalçı var. Hazırda bu istehsal hər şeydən öncə əsasən ixraca istiqamətlənmişdir, lazımi şərtlərin təmin edildiyi təqdirdə isə Azərbaycanın daxili bazarı üçün də istehsalı mümkün olacaqdır.

Orqanik tərəvəz məhsullarının yetişdirilməsi üçün orqanik toxumlardan istifadə vacibdir. Enza Zaden müştərilərinə orqanik əkinçilik yolu ilə toxumlarının yetişdirildiyi müəyyən sort və hibridlərinin çeşidlərini təklif edir. Bu toxumların istehsalçısı isə Hollandiyanın Vorst şəhərində yerləşən "Vitalis Biologische Zaden BV"-Enza Zadenin ixtisaslaşmış müəssisəsidir.

Orqanik əkinçilik yolu ilə tərəvəzlərin yetişdirilməsi fikri bizim üçün elə ən başından ənənəvi tərəvəzçilikdə tətbiq edilən metod və texnologiyalardan istifadə ilə əlaqələnirdi. Bizim ixtisaslaşmış müəssisəmiz ən müasir istehsal texnologiyaları və keyfiyyət standartlarından istifadə edərək orqanik əkinçiliyin təməl prinsipləri olan bioloji müxtəlifliyin qorunması, ekoloji cəhətdən zərərsiz və ekoloji təmizlik prinsiplərinə əsaslanaraq fəaliyyət göstərir. Nəticədə biz seleksiya və istehsalda inqilabi həll yolları tapmışıq, bu da öz növbəsində yüksək keyfiyyətli toxumların əldə edilməsinə gətirib çıxarmışdır, bu toxumlardan isə ekoloji təmiz, dadlı və sağlamlıq üçün xeyirli müstəsna keyfiyyətdə tərəvəz yetişdirmək mümkündür.

Hal hazırda Vitalis şirkəti orqanik əkinçilik üçün toxum istehsalı və satışında dünya lideridir. Vitalis 1994-cü ildə yaradılmışdır, 1998-ci ildə isə Enza Zadenin tərkibinə daxil olmuş və Enza şirkətlər qrupunun daxilində müstəqil şirkət kimi fəaliyyət göstərmişdir. Vitalis şirkətinin başlıca vəzifəsi orqanik tərəvəzçilik üçün vacib əlamətlərə malik yüksək keyfiyyətli sertifikatlaşdırılmış toxumlar istehsal etməkdir. Bu məqsədlə Vitalis şirkəti müxtəlif növ tərəvəz toxumlarının çeşidlərinin seleksiyası və seçilməsinə böyük diqqət ayırmışdır. Şirkətdə istehsal edilən toxumların xüsusi olaraq orqanik tərəvəzçilik üçün yararlılığı test edilir və ciddi kriteriyalara cavab verən toxumlar bizim ticari çeşidlərimizin arasına əlavə edilir. Beləliklə, Vitalis şirkəti Sizlərə, bizim tərəfdaşlarımıza xüsusi olaraq orqanik tərəvəzçilik üçün seçilmiş geniş toxum seçimi təqdim edir.

Beynəlxalq distribyutor şəbəkəsinin inkişafı və Enza Zaden şirkətinin ixrac sistemindən istifadə edərək, biz Yer kürəsinin hər bir nöqtəsində ixtisaslaşmış orqanik tərəvəz istehsalçılarını toxumlarla təchiz edirik. Bizim orqanik toxum çeşidlərimiz, həmçinin istehsalımızın beynəlxalq sertifikatları haqqında ətraflı məlumatı eu.biovitalis.eu saytından əldə edə bilərsiniz.

Pomidor

Polietilen örtüklü istixanalarda becərilən irimeyəli indeterminant pomidorlar

Rally F1

Azərbaycanda indeterminant pomidorlar arasında satış üzrə lideridir. Çox tezyetişən, yüksək məhsuldar hibriddir. Tezyetişgənliyinə görə Enza Zadenin indeterminant hibridləri arasında liderdir və poludeterminant hibridlərdən geri qalmır. Qısa buğumaraları olan güclü yarımaçıq tipli bitkidir və sıxlaşdırılmış əkinə icazə verilir. Meyvələri yastı-yumru formadadır, çəkisi 250-300 qr (birinci salxımdakı meyvələr adətən daha böyük olur), əmtəəlik görünüşünü uzun müddət saxlayır və uzun məsafələrə daşınmaq üçün yararlıdır. Şüşə və polietilen örtüklü istixanalarda qısa dövriyyədə çox faraş və yüksək keyfiyyətli məhsul almaq üçün tövsiyyə edilir.

Agilis F1

Tezyetişən, iri meyvəliliyi yeni hibriddir. Meyvəsinin çəkisi 240-300 qramdır. Qısa dövriyyədə, birinci və ikinci dövriyyələrdə becərilməyə uyğundur. Yığcam buğumaraları sayəsində bitkiyə qulluq etmək olduqca rahatdır, hündür və alçaq polietilen örtüklü istixanalarda əla nəticələr göstərir. Meyvələri eyni ölçülüdür, çatlamır.

Belle F1

Geniş yayılmış tezyetişən hibriddir. Sabit meyvə formalaşdırması və əlverişsiz şəraitə yüksək davamlılığı ilə fərqlənir. Qüvvəli gövdəyə və qısa buğum aralarına malikdir. Meyvələri eyni formada, bərk, dolğun qırmızı rəngdə, 180-220 qr çəkidə olub yaxşı əmtəəlik görünüşünə və daşınmağa davamlıdır. Şüşə və polietilen örtüklü istixanalarda becərilməsi tövsiyyə edilir.

Berberana F1

Tezyetişən, irimeyvəli, çox məhsuldar və kompleks xəstəliklərə qarşı davamlı hibriddir. Qısa buğumlu, yığcam, güclü bitkidir. Yüksək plastiklik xüsusiyyəti və müxtəlif şəraitlərə uyğunlaşma qabiliyyəti ilə fərqlənir. Güclü yarpaqlara və kök sisteminə malikdir. Böyük, eyni ölçülü meyvələri parlaq-qırmızı 250-280 qr olub gözəl əmtəəlik görünüşə malikdir, çox yaxşı saxlanır və daşınır. Qısa dövriyyədə becərilməsi tövsiyyə edilir.

Rally F1

Agilis F1

Pomidor

Buran F1

Farhad F1

Polietilen örtüklü istixanalarda becərilən irimeyəli indeterminant pomidorlar

Buran F1

Yaxşı meyvə tutumu və güclü kök sistemi olan yarımaçıq tipli güclü bitkidir. Meyvələri yüksək keyfiyyətli, azacıq qabırğalı yastı-girdə formadadır, orta çəkisi 180-220 qr. Meyvələri əla sıx və daxili struktura malikdir. Ağır becərmə şəraitinə yaxşı uyğunlaşır. Mineral gübrələrin verilməsinə tez reaksiya verir. İstənilən növ istixanalarda qısa döriyyədə becərilməsi tövsiyyə edilir. Geniş xəstəlik spektrinə davamlıdır.

Belfast F1

Yeni, çox tezyetişən irimeyvəli hibrid – yüksək faraş məhsulun təminatçısıdır.
Rusiyanın cənubunda istehsalat təcrübələrində əla nəticələr göstərmişdir. Müntəzəm meyvə formalaşdıran güclü bitkidir. Birinci salxımları tez dolur və yetişir. Meyvələrinin çəkisi 220-300 qr, rəngi dolğun qırmızı, forması yumru olub əla möhkəmliyə və daşınma xüsusiyyətlərinə malikdir, forması yumru olub əla möhkəmliyə və daşınma xüsusiyyətlərinə malikdir. Stress şəraitə davamlıdır. İstənilən növ istixanalarda qısa dövriyyədə becərilməsi tövsiyyə edilir.

Bellfort F1

Yeni, çox tezyetişən irimeyvəli hibriddir. Nadir kütləvi tez məhsul vermə xüsusiyyətinə malikdir. Salxımların çox yığcam yerləşməsi bu hibridi yüksək olmayan istixanalarda becərmək üçün səmərəli edir və salxımların tez dolması ən tez məhsul yetişməsini təmin edir. Meyvələri 260-280 qr, əla keyfiyyətli, bərk, yumru formalı və tünd qırmızı rənglidir və əla əmtəəlik görünüşü ilə fərqlənir.
Stress şəraitlərdə müntəzəm olaraq tezyetişən və yüksək əmtəəlilik məhsulu verir. İstənilən növ istixanada yetişdirilir, çatlamağa davamlıdır və yüksək daşınma keyfiyyəti vardır. Davamlılığı: pomidor mozaikası virusu, pomidorun bronz virusu, kladosporioz 1-5 ras, vertilyoz soluxma, fuzarioz soluxması 0,1,2 ras, nematod.

Farhad F1

Tezyetişən tələbkar olmayan hibriddir. Qısa buğumlu və güclü kök sistemi olan güclü bitkidir. Temperatur streslərinə əla davamlıdır. Meyvələri eyni ölçülü, iri, parlaq qırmızı rəngli və çəkisi 200-230 qramdır. Meyvələrinin yüksək keyfiyyəti mövsümün sonuna qədər saxlanılır. Nematoda və unlu şehə davamlılığı sayəsində köhnə yoluxmuş torpaqda becərilə bilər. Torpaqda qısa və uzadılmış dövriyyədə becərilməsi tövsiyyə edilir.

Hibrid	Davamlılığı		Yetişkənliyi	Bitkinin habitusu	Meyvə çəkisi (qr.)	İstehsal növü	Qeyd
	HR	IR					
Polietilen örtüklü istixanalarda becərilən irimeyəli indeterminant pomidorlar							
Rally F1	ToMV:0-2/Ff:A-E/Va:0/ Vd:0/Fol:0,1	TSWV/Ma/Mi/Mj	çox tezyetişən	güclü	250-300 qr	▢	Çox tezyetişən yüksək keyfiyyətli məhsul verir.
Agilis F1	ToMV:0-2/Ff:A-E/Va:0/ Vd:0/Fol:0,1	TSWV/Ma/Mi/Mj	çox tezyetişən	güclü	240-300 qr	▢	Eyni ölçülü əla keyfiyyətli meyvələri olur.
Belle F1	ToMV:0-2/Va:0/Vd:0/ Fol:0,1		tezyetişən	güclü	180-220 qr	▢	Etibarlı, stresə davamlı hibriddir.
Berberana F1	ToMV:0-2/Ff:A-E/Va:0/ Vd:0/Fol:0,1	TSWV/Ma/Mi/Mj	tezyetişən	güclü	250-280 qr	▢	Eyni ölüçülü əla keyfiyyətli meyvələri olur.
Buran F1	ToMV:0-2/Ff:A-E/Va:0/ Vd:0/Fol:0,1	TSWV/Ma/Mi/Mj	tezyetişən	qüvvəli	180-220 qr	▢	Meyvələrinin əla əmtəəlilik keyfiyyəti var.
Belfast F1	ToMV:0-2/Ff:A-E/Va:0/ Vd:0/Fol:0-2	TSWV/Ma/Mi/Mj	çox tezyetişən	güclü	220-300 qr	▢	Yüksək məhsuldar və tezyetişən məhsulu var.
Bellfort F1	ToMV:0-2/Ff:A-E/Va:0/ Vd:0/Fol:0-2	TSWV/Ma/Mi/Mj	tezyetişən	güclü	220-300 qr	▢	Stabil tezyetişən məhsul.
Farhad F1	ToMV:0-2/Va:0/Vd:0/ Fol:0,1/For	On/Ma/Mi/Mj	tezyetişən	qüvvəli	220-250 qr	▢	Temperatur streslərinə davamlıdır.

HR: High Resistance – yüksək dərəcə davamlılığı | IR: Intermediate Resistance – orta dərəcə davamlılığı | T: Tolerance – Dözümlülük | Davamlılıq kodunun açıqlamasına 46 səhifədə baxın. Davamlılıq haqqında məlumat www.enzazaden.com. ▢ saytında verilib | ▢ isidilən şüşə istixana | ▒ isidilməyən polietilen örtüklü istixana| açıq sahə.

Pomidor

Plastik tunellərdə yetişdirilmək üçün nəzərdə tutulmuş orta-ölçülü yumru pomidorlar

Sylviana F1

Polietilen örtüklü istixanalarda asan yetişdirilən güclü yığcam bitkidir. Müxtəlif şəraitlərdə becərilmə üçün çox uyğundur. Qeyri adi meyvə keyfiyyəti var. Meyvəsi yastı yumru, eyni ölçülü, çəkisi 200-220 qr olur. Sylviana çox ümidverici hibriddir və uzadılmış dövriyyədə isidilməyən istixanada yetişdirmək üçün uyğundur.

İsidilən professional istixanalarda yetişdirilmək üçün nəzərdə tutulmuş çəhrayı pomidor

Enroza F1 (E15A.41717)

Yaxşı quruluşa malik qısa buğumarası olan güclü bitkidir. Meyvələri eyni ölçülü yumru formada, çəhrayı rəngdə, normal şərtlərdə, 160-200 qram ağırlıqdadır və yaxşı dada malikdir. Hər pomidor salxımında 4 meyvə olacaq şəkildə budamaq lazımdır. Uzun müddətli yetişdirilmə üçün yararlıdır. Hətta zəif işıqlanma intensivliyində (Dekabr-Yanvar) istixanalarda güclü performans göstərir.

Taipink F1

Tünd çəhrayı rəngli tezyetişən güclü bitkidir. Semi-determinant hibriddir, eyni formalı meyvələri, cəlbedici ətli çəhrayı rənglidir. Çatlamır, yüksək məhsuldarlıq potensialı var, dadı əladır.
Meyvələrinin çəkisi 250-300 qramdır. Yaz və payız əkininə uyğundur.

Enroza F1 (E15A.41717)

Taipink F1

Hibrid	Davamlılığı		Yetişkənliyi	Bitkinin habitusu	Meyvə çəkisi (qr.)	İstehsal növü	Qeyd
	HR	IR					
Plastik tunellərdə yetişdirilmək üçün nəzərdə tutulmuş orta-ölçülü yumru pomidorlar							
Sylviana F1	ToMV:0-2/Ff:A-E/Va:0/Vd:0/Fol:0-2	TSWV/TYLCV/Ma/Mi/Mj	orta tezyetişən	qüvvəli	180-200 qr	▢	Uzadılmış dövriyyədə polietilen öüklü istixanada asan yetişdirilən güclü hibriddir.
İsidilən professional istixanalarda yetişdirilmək üçün nəzərdə tutulmuş çəhrayı pomidor							
Enroza F1 (E15A.41717)	ToMV:0-2/ToANV/Ff:A-E/Va:0/Vd:0/Fol:0,1/For	Ss	orta tezyetişən	qüvvəli	160-200 qr	▢	Uzun dövri yetişdirilmə üçündür. Zəif işıqlanma intensivliyində (Dekabr-Yanvar) istixanalarda güclü performans göstərir.
Taipink F1	ToMV:0-2/Ff:A-E/Va:0/Vd:0/Fol:0,1	TSWV/TYLCV	orta tezyetişən	qüvvəli	220-250qr	▢	Tünd çəhrayı,parlaq,yumru, bərk meyvəli hibriddir. Yaz və payız əkinlərinə uyğundur.

HR: High Resistance – yüksək dərəcə davamlılığı | IR: Intermediate Resistance – orta dərəcə davamlılığı | T: Tolerance – Dözümlülük | Davamlılıq kodunun açıqlamasına 46 səhifədə baxın. Davamlılıq haqqında məlumat www.enzazaden.com. ▢ saytında verilib | ▢ isidilən şüşə istixana | ▩ isidilməyən polietilen örtüklü istixana| açıq sahə.

Pomidor

Avalantino F1

Gualdino F1

Granadero F1

Salxım pomidorlar

Diamantino F1

Salxım pomidorların yeni yüksək məhsuldar hibrididir. Horizontal yerləşən yarpaqları və orta ölçülü buğumaraları olan, asan becərilən açıq tipli qüvvəli bitkidir. Əla meyvə formalaşdırır. Eyni ölçülü salxımı və meyvələri olur. Yumru, parlaq meyvələri 130 qramdır. İstixananın pepino virusuna yoluxmasına baxmayaraq belə meyvələri dolğun qırmızı rəngə qədər eyni vaxtda yetişir. Bərk, saxlana və asan daşına bilən meyvələri var. Boz çürüməyə davamlıdır.

Avalantino F1

Özünü müxtəlif şəraitlərdə yaxşı göstərən yeni hibriddir. Hündür boylu, açıq tipli, yaxşı davamlı və müxtəlif şəraitlərə uyğunlaşan bitkidir. Müntəzəm inkişaf edir və formalaşır. Yumru dolğun qırmızı meyvələri var. Meyvə çəkisi 70-90 qr. Geniş və tünd yaşıl salxımı məhsulu yaxşı göstərir. Hər salxımda sərbəst və salxımla yığıla biləcək 6 -8 meyvə formalaşır. Əla keyfiyyətli, dadlı meyvələri olur.

Sarı meyvəli pomidorlar

Gualdino F1

Sarı meyvəli tezyetişən hibriddir. Salxımla yığıla bilən, gözəl formalı salxımı olan açıq tipli bitkidir. Meyvələri bərk, yastı yumru və ya yumru forma olur, orta çəkisi 100-120 qramdır. Substratda və torpaqda istənilən növ istixanada becərilir.

Gavalıya bənzər pomidorlar

Naram F1

Yüksək məhsuldar tezyetişən hibriddir. Meyvələri asan formalaşır. Müxtəlif becərmə şəaitlərinə yaxşı uyğunlaşan, açıq tipli, güclü bitkidir. Salxımları tam eyni ölçüdədir. Gavalıya bənzər meyvələrinin çəkisi 140-150 qramdır. İsidilməyən polietilen örtüklü istixanalarda becərilir.

Granadero F1

Tezyetişən və məhsuldar yeni hibriddir. Açıq tipli güclü bitkidir. Həm aşağı həm də yuxarı temperatur şəraitində yaxşı meyvə formalaşdırır. Meyvələri gözəl gavalı formalı, qabırğasız, parlaq, tünd qırmızı olur. Orta çəkisi 140-150 qr. Qısa dövriyyədə torpaqda polietilen örtüklü istixanalarda becərilir.

Policarpo F1

Policarpo polietilen örtüklü istaxanalarda becərilən yeni gavalıya bənzər hibriddir. Hibrid bitkinin ucuna qədər öz ölçülərini saxlayan güclü, müntəzəm inkişaf edir və asan meyvə formalaşdırır. Hər salxımda 5-6 meyvə verir və mevə çəkisi 180-200 qramdır, uzaq məsafələrə göndərilmək üçün yararlıdır. Davamlılıq paketi Policarponu müxtəlif şəraitlərdə becərməyə imkan verir.

Bibərəbənzər pomidorlar

Pozzano F1

Yüksək məhsuldar tezyetişən hibriddir. Açıq tipli qüvvəli bitkidir. Cəlbedici meyvələri qeyri- adi bibər formasındadır, rəngi tünd qırmızıdır, bərkdir və əla saxlanır. Meyvələrinin orta çəkisi 135-145 qramdır. Uc çürüməsinə qarşı davamlıdır. Torpaqda polietilen örtüklü istixanalarda becərilir.

Pozzano F1

Hibrid	Davamlılığı			Yetişkənliyi	Bitkinin habitusu	Meyvə çəkisi (qr.)	İstehsal növü	Qeyd
	HR	IR	T					
Salxım pomidorlar								
Diamantino F1	ToMV:0-2/Va:0/Vd:0/ Fol:0,1/For	On	Si	orta tezyetişən	güclü	260-300 qr	▢ ▢	Meyvələrinin keyfiyyəti əladır.
Avalantino F1	ToMV:0-2/Ff:A-E/ Va:0/Vd:0/Fol:0,1/For	On	Si	tezyetişən	güclü	270-300 qr	▢ ▢	Meyvələrinin keyfiyyəti əladır.
Sarı pomidorlar								
Gualdino F1	ToMV:0-2/Ff:A-E/ Va:0/Vd:0/Fol:0,1/For			tezyetişən	qüvvəli	100-120 qr	▢ ▢	Sarı meyvələri yüksək məhuldardır.
Polietilen örtüklü istixanalarda becərilən ortameyvəli pomidorlar								
Naram F1	ToMV:0-2/Ff:B,D/ Va:0/Vd:0/Fol:0,1	Ma/Mi/Mj		tezyetişən	qüvvəli	140-150 qr	▢	Əla meyvə formalaşdırır və , düzənli salxımları olur.
Granadero F1	ToMV:0-2/Lt/Va:0/ Vd:0/Fol:0,1	TSWV/Ma/Mi/Mj		tezyetişən	güclü	140-150 qr	▢	Düzənli meyvələri gözəl keyfiyyətlidir.
Policarpo F1	ToMV:0-2/Va:0/Vd:0/ Fol:0,1/Pst	TSWV/TYLCV/Ma/ Mi/Mj		tezyetişən	güclü	150-170 qr	▢	Bərkdir və uzaq məsafələrə daşınmağa uyğundur
Bibərəbənzər pomidorlar								
Pozzano F1	ToMV:0-2/Va:0/Vd:0/ Fol:0,1			tezyetişən	qüvvəli	135-145 qr	▢	Bibərəbənzər cəlbedici meyvələri var.

HR: High Resistance – yüksək dərəcə davamlılığı | IR: Intermediate Resistance – orta dərəcə davamlılığı | T: Tolerance – Dözümlülük | Davamlılıq kodunun açıqlamasına 46 səhifədə baxın. Davamlılıq haqqında məlumat www.enzazaden.com. ▢ saytında verilib | ▢ isidilən şüşə istixana | ▒ isidilməyən polietilen örtüklü istixana| açıq sahə.

Pomidor

Annatefka F1

Temptation F1

Kokteyl pomidorlar

Annamay F1

Yüksək məhsuldar güclü bitkisi olan hibriddir. Yayda isti şəraitdə və həmçinin svetokultura şəraitində əla meyvə formalaşdırır. Yığcam gözəl salxımlarında hər salxımda 8-10 meyvə olur. Meyvələri bərabər, hərtərəfli rəngə dolur və bərkdir. Meyvələrinin orta çəkisi 40 qramdır. Meyvələri meyvə saplağına möhkəm bərkidilmişdir. Əla dadı var. Salxımının yaşıl hissələrinin yaxşı qalması qablaşdırmada cəlbedici əmtəəlik görünüşü verir. Substratda isidilən istixanalarda becərilmək üçündür.

Annatefka F1

Yüksək keyfiyyətli ümumi məhsulu olan pomidordur. Balanslaşmış güclü bitkidir, həm zəif həm də güclü işıqda yaxşı inkişaf edir. Kiçik ölçülü kokteyl pomidordur, 35 qr tünd qırmızı və parlaq rəngli, əla yaşıl hissəli və dadlı meyvələri var. Süni işıqlanma şəraitində becərilə bilər və əla nəticə verir. Yüksək temperatura asan dözür. Yastı salxımlarında 10-a qədər meyvə saxlamaq olar.

Arlinta F1

Yeni hibriddir. Çox qısa buğumaraları olan güclü bitkidir. Eyni ölçülü və yığcam gözəl salxımlar əmələ gətirir. Meyvələri dolğun qırmızı, bərk, parlaq, orta çəkisi 45 qramdır. Əla dadı və əmtəəlik görünüşü var. Substratda isidilən şüşə istixanalarda becərilir.

Annaluca F1

Formalı və tez inkişaf edən salxımı olan yeni hibriddir. Dözümlü, güclü və yaxşı əmələ gələn açıq tipli bitkidir. Müntəzəm formalı, tünd qırmızı və parlaq, çox dadlı meyvələr verir. Hər salxımda 8-10 meyvə olur. Orta çəkisi 45qr, çatlamağa davamlı, qızıl ləkəli ləçəkləri olan meyvələri olur. Yaşıl hissəsi qalın olur və yığımdan sonra öz rəngini yaxşı saxlayır. İsidilən istixanalarda uzadılmış dövriyyədə becərmək üçün tövsiyyə edilir.

Temptation F1

Kokteyl pomidor Temptation özünün əla dadı, yaxşı möhkəmliyi və klassik salxım formasına görə məşhurdur. Çox güclü bitkidir. Düzənli salxımlarının hər birində orta çəkisi 60-70 qram olan təxmini səkkiz meyvə olur. Bu hibrid həm tək tək həm də salxımla yığıla bilər və isidilən və isidilməyən istixanalarda becərilir. Gözəl parıltılı əla dadlı meyvələri var.

Hibrid	Davamlılığı			Yetişkənliyi	Bitkinin habitusu	Meyvə çəkisi (qr.)	İstehsal növü	Qeyd
	HR	IR	T					
Kokteyl pomidorlar								
Annamay F1	ToMV:0-2/Ff:A-E/ Va:0/Vd:0/Fol:0,1	On	Si	tezyetişən	güclü	40 qr	⬡	Tezyetişən hibriddir.
Annatefka F1	ToMV:0-2/Ff:A-E/ Va:0/Vd:0/Fol:0,1/For	On/Ma/Mi/Mj	Si	tezyetişən	güclü	35 qr	⬡	Zəif işıqlanma dövrlərində yaxşı formalaşır.
Annaluca F1	ToMV:0-2/ToANV/ Va:0/Vd:0/Fol:0,1	On	Si	tezyetişən	güclü	40-45 qr	⬡	Çox düzənli salxımı və meyvələri olur.
Arlinta F1	ToMV:0-2/Ff:A-E/ Va:0/Vd:0/Fol:0,1/For	On/Ma/Mi/Mj	Si	tezyetişən	güclü	45 qr	⬡	Uzadılmış dövriyyədə polietilen örtüklü istixanada asan yetişdirilən güclü.
Temptation F1	ToMV:0-2/Ff:A-E/ Va:0/Vd:0/Fol:0,1/For		Si	tezyetişən	güclü	60-70 qr	⬡	Əla meyvə formalaşdırır.

HR: High Resistance – yüksək dərəcə davamlılığı | IR: Intermediate Resistance – orta dərəcə davamlılığı | T: Tolerance – Dözümlülük | Davamlılıq kodunun açıqlamasına 46 səhifədə baxın. Davamlılıq haqqında məlumat www.enzazaden.com. ⬡ saytında verilib | ⬡ isidilən şüşə istixana | ▒ isidilməyən polietilen örtüklü istixana| açıq sahə.

Pomidor

Sakura F1



Nectar F1

Çerri pomidorlar

Sakura F1

Yüksək məhsuldar tezyetişən hibriddir. Böyük şaxələnmiş salxımlı, açıq tipli güclü bitkidir. Meyvələri yumru, cəlbedici qırmızı rəngli və bərkdir. Çəkisi 15-20 qr. Dad keyfiyyəti çox yüksəkdir. İşıq çatışmamazlığı və aşağı temperatur şəraitində əla meyvə formalaşdıra bilir. Uzadılmış dövriyyədə zəif işıqlanmada becərmək tövsiyyə edilir.

Nectar F1

Orta tezyetişən hibriddir. Yaxşı meyvə formalaşdıran və gözəl salxımılı açıq tipli, güclü bitkidir. Meyvələri yumru, çəkisi 15-20 qr, tünd qırmızı rəngli və bərk olur. Salxımla yığım üçün yararlıdır. Meyvələrinin dad keyfiyyətinə görə ən yaxşı hibridlərdən biridir. İstənilən növ istixanalarda becərilə bilər.

Trebus F1

Keyfiyyətli və məhsuldar hibriddir. Xüsusilə isti şəraitdə yaxşı əmələ gələn açıq tipli bitkidir. Gözəl rəngli və bərk meyvələrinin çəkisi 25-30 qramdır. Çatlamağa çox davamlıdır. İsidilən və isidilməyən istixanalar üçün tövsiyyə edilir.

Tomaggio F1

Uzadılmış dövriyyə üçün yeni ümidverici bitkidir. Orta buğumaralı, yarım açıq tipli, güclü bitkidir. Yaxşı formalaşan və düzənli salxım inkişafı olan hibriddir. Balıq sümüyü formada çox bərk salxımları var. Tez yetişən, parıltılı qırmızı, yumru, çəkisi 20-22 qr, əla dadı olan, xırçıldayan şirin meyvələri var. Çox bərkdir, çatlamağa və uc çürüməsinə çox davamlıdır.

Marinika F1

Marinika isidilməyən istixanalar üçün əla dadlı və bərk meyvəli çerri pomidordur. Güclü, orta buğumaraları olan, qış boyu yaxşı məhsul verən hibriddir. Hibrid ikiyə ayrılmış geniş salxımlar verir və sərbəst qablaşdırma üçün tövsiyyə edilir. Meyvələri yumru fomada, ortalama 18-20 qram, bərk və yetişəndə gözəl parıltılı qırmızı rəngdə olur.

Zorayda F1

İsidilməyən istixanalarda becərilən salxım çerridir. Müxtəlif şəraitlərdə özünü yaxşı göstərir. Yarım açıq tipli, qüvvəli, yaxşı dözümlü və soyuq şəraitdə özünü yaxşı göstərən bitkidir. Meyvəsinin çəkisi 18-20 qramdır və yaşıl hissəsi dolğun yaşıldır. Yaxşı rəngi və salxım görünüşü var.

Hibrid	Davamlılığı			Yetişkənliyi	Bitkinin habitusu	Meyvə çəkisi (qr.)	İstehsal növü	Qeyd
	HR	IR	T					
Çerri- pomidorlar								
Sakura F1	ToMV:0-2/Ff:A-E/ Fol:0,1	Ma/Mi/Mj	Si	tezyetişən	qüvvəli	15-20 qr	▢ ▢	İşıq çatışmamazlığı və aşağı temperatur şəraitində əla meyvə formalaşdırır.
Nectar F1	ToMV:0-2/Ff:A-E/ Fol:0,1		Si	tezyetişən	güclü	15-20 qr	▢ ▢	Meyvə dadına görə ən yaxşı hibridlərdən biridir.
Trebus F1	ToMV:0-2/Fol:0,1/For			tezyetişən	güclü	25-30 qr	▢ ▢	Keyfiyyəti məhsuldarlıqla birləşdirən növdür
Tomaggio F1	ToMV:0-2/Va:0/Vd:0/ Fol:0/For	On		tezyetişən	güclü	15-17 qr	▢	Yüksək məhsuldar hibriddir.
Marinika F1	ToMV:0-2/Ff:A-E/Aal/ Fol:0,1/For/Pst	TYLCV/Ss		tezyetişən	qüvvəli	18-20 qr	▢	Yaxşı formalaşan və stabil məhsuldardır.
Zorayda F1	ToMV:0-2/Ff:A-E/Aal/ Fol:0,1	TYLCV/Ss		tezyetişən	güclü	18-20 qr	▢	Sezon boyu özünü stabil yaxşı göstərir.

HR: High Resistance – yüksək dərəcə davamlılığı | IR: Intermediate Resistance – orta dərəcə davamlılığı | T: Tolerance – Dözümlülük | Davamlılıq kodunun açıqlamasına 46 səhifədə baxın. Davamlılıq haqqında məlumat www.enzazaden.com. ▢ saytında verilib | ▢ isidilən şüşə istixana | ▒ isidilməyən polietilen örtüklü istixana| açıq sahə.

Pomidor

Mini gavalıyabənzər pomidorlar

Ardiles F1

Yeni stresədavamlı və yüksək məhsuldar hibriddir. Açıq tipli güclü bitkidir. Gavalıya bənzər gözəl meyvəli eyni ölçülü salxımları var. Meyvələrinin çəkisi 35 qramdır, bərkdir, bərabər dolğun qırmızı rəngə boyanırlar və meyvə saplağında möhkəm dururlar. Uc çürüməsinə davamlıdır. Tək tək və salxımla yığım üçündür. Salxımla yığıldıqda salxımın bütün hissələri daxil olmaqla uzunmüddətli saxlana bilir. İsidilən istixanalarda becərilmək üçün tövsiyyə edilir.

Garincha F1

Çox gözəl və şirin dadlı meyvələri olan yeni hibriddir. Uzadılmış buğumaraları olan güclü bitkidir. Erkən meyvə verməyə başlaır. Əla meyvə formalaşdırır və yüksək məhsuldardır. Hər birində 20-24 meyvə olan uzun salxım əmələ gətirir. Meyvəsinin orta çəkisi 12-15 qramdır. Parlaq, dolğun qırmızı, azacıq çıxıntılı (qabırğalı) meyvələrinin əla dadı və iyi var. Meyvələri bərabər rəng alır. Tək tək yığmaq üçündür. Substratda isidilən istixanalarda becərilir.

Vespolino F1

Tezyetişən gözəl hibriddir. Uzadılmış buğumaraları olan açıq tipli güclü bitkidir. Aşağı və yüksək temperaturda əla meyvə formalaşdırır. Salxımlar tez dolur və meyvələr bərabər yetişir. Uzunsov gavalıya bənzər parlaq tünd qırmızı meyvələrinin çəkisi 25-30 qr. Salxımları və meyvələri çox düzənlidir. Tək tək və salxımla yığım üçündür. Çatlamağa və uc çürüməsinə davamlıdır. İstənilən növ istixanada becərilmək üçün tövsiyyə edilir.

Ardiles F1

Hibrid	Davamlılığı			Yetişkənliyi	Bitkinin habitusu	Meyvə çəkisi (qr.)	İstehsal növü	Qeyd
	HR	IR	T					
Mini- gavalıyabənzər pomidorlar								
Ardiles F1	ToMV:0-2/Ff:A-E/ Va:0/Vd:0/Fol:0,1/For	On/Ma/Mi/Mj	Si	tezyetişən	qüvvəli	35 qr	⬡	Yeni stresə davamlı və yüksək məhsuldar hibriddir
Garincha F1	ToMV:0-2/Fol:0,1	TSWV/Ma/Mi/Mj		tezyetişən	güclü	12-15 qr	⬡	Çox məhsuldardır. Meyvələri çox dadlıdır.
Vespolino F1	ToMV:0-2/Fol:0,1	Ma/Mi/Mj	Si	tezyetişən	güclü	25-30 qr	⬡	Yeni hibriddir. Stres şəraitində əla meyvə formalaşdırır.

HR: High Resistance – yüksək dərəcə davamlılığı | IR: Intermediate Resistance – orta dərəcə davamlılığı | T: Tolerance – Dözümlülük | Davamlılıq kodunun açıqlamasına 46 səhifədə baxın. Davamlılıq haqqında məlumat www.enzazaden.com. ⬡ saytında verilib | ⬡ isidilən şüşə istixana | ⬢ isidilməyən polietilen örtüklü istixana| açıq sahə.

Pomidor

Lojain F1

Behram F1

Morelia F1

Açıq sahədə becərilən determinant pomidorlar

Lojain F1

Həddən çox isti becərmə şəraitində yüksək məhsuldarlığına görə tayı bərabəri olmayan liderdir. Qüvvəli bitkidir, yaxşı yarpaqlanması meyvələrini günəş yanığından qoruyur. Orta tezyetişən hibriddir. Meyvələri dolğun tünd qırmızı, çox bərk, düzgün yumru formalıdır və çəkisi 160-200 qramdır. Əla saxlanması və yüksək əmtəəlik keyfiyyəti uzaq məsafələrə daşınmasına imkan verir. Pomidorun sarı yarpaq qıvrılması virusuna qarşı əlavə davamlılığı var.

Behram F1

Əkildikdən 70-75 gün sonra yetişməyə başlayır, meyvənin forması yumru, çəkisi 200-220 qramdır. Meyvənin rəngi tünd-qırmızı, parıltılıdır.
Güclü və möhkəm bitkidir, çox davamlı və məhsuldardır, yarpaqları meyvələri çox yaxşı qoruyur. Möhkəm kök sistemi sayəsində, məhsul vegetasiya müddəti ərzində azalmır. Meyvələri bərabər forma və ölçülərə malikdir. Ehtiyac yaranarsa, meyvələri ticari keyfiyyətlərini itirmədən uzun müddət bitkinin üstündə saxlanıla bilər, daşınmaya dayanıqlıdır.

Yusuf 408 F1

Tezyetişən, asan becərilən yeni hibriddir. Güclü inkişaf etmiş kök sistemi və yarpaqları olan yığcam bitkidir. İsti şəraitdə əla meyvə formalaşdırır. Yüksək məhsuldar və əla keyfiyyətli meyvələri var. Yumru, bərabər ölçülü, çox bərk, tünd qırmızı meyvələrinin çəkisi 180-200 qramdır. Yüksək standart məhsul verir.

Imran F1

İrimeyvəli və yüksək məhsuldar yeni hibriddir. Güclü inkişaf etmiş kök sistemi və yarpaqları olan yığcam bitkidir. Erkən meyvə əmələ gətirməyə başlayır. Meyvələri yumru, çıxıntısız, tünd qırmızı, bərk olur və çəkisi 180-200 qramdır. Bütün meyvə vermə dövründə meyvələri yüksək düzənli bərabərlilik xüsusiyyətinə malikdir.

Ayvaz 331 F1

Birgə məhsul verən yüksək məhsuldar tezyetişən hibriddir. Meyvələrini günəş yanığından yaxşı qoruyan yarpaq aparatı olan güclü bitkidir. Meyvələri parlaq qırmızı, yarpaq saplağında yaşıl ləkə olmayan , yastı yumurudur və çəkisi 180-220 qramdır. Yüksək əmtəəlik məhsul verimi, əla dadı və həmçinin yığımdan sonra saxlanması və asan daşınması ilə fərqlənir.

Determinant Gavalı

Morelia F1

Açıq sahə üçün yeni gavalıya bənzər pomidor hibrididir. Yüksək məhsul potensialı olan və əla meyvə formalaşdıran güclü bitkidir. Gavalıya bənzər meyvələri bərk, parlaq qırmızı olur və çəkisi 140-160 qramdır. İsti şəraitdə sabit meyvə formalaşdırır və yüksək keyfiyyətli meyvələri olur.

Hibrid	Davamlılığı		Yetişkənliyi	Bitkinin habitusu	Meyvə çəkisi (qr.)	İstehsal növü	Qeyd
	HR	IR					
Determinant pomidorlar							
Lojain F1	ToMV:0-2/Va:0/Vd:0/Fol:0,1	TYLCV	orta tezyetişən	qüvvəli	160-200 qr	▒	Ekstremal isti şəraitdə məhsuldarlığına görə liderdir.
Yusuf 408 F1	Va:0/Vd:0/Fol:0,1	Ma/Mi/Mj	tezyetişən	güclü	180-200 qr	▒	Meyvələrinin dadı əladır.
Behram F1	ToANV/Va:0/Vd:0/Fol:0,1	TSWV/TYLCV/Ma/Mi/Mj	orta tezyetişən	güclü	180-200 qr	▒	Yüksək məhsuldardır və xəstəliklərə qarşı yaxşı sahə davamlılığı var.
Ayvaz 331 F1	ToANV/Va:0/Vd:0/Fol:0,1	TSWV/Ma/Mi/Mj	tezyetişən	güclü	180-220 qr	▒	Yüksək məhsuldardır və xəstəliklərə qarşı yaxşı sahə davamlılığı var.
Imran F1	Lt/Va:0/Vd:0/Fol:0,1	TSWV/Ma/Mi/Mj	tezyetişən	güclü	180-200 qr	▒	Yüksək meyvə düzənliyi
Determinant pomidorlar							
Morelia F1	Va:0/Vd:0/Fol:0,1	TYLCV	tezyetişən	güclü	140-160 qr	▒	İsti şəraitdə stabil meyvə formalaşdırır.

HR: High Resistance – yüksək dərəcə davamlılığı | IR: Intermediate Resistance – orta dərəcə davamlılığı | T: Tolerance – Dözümlülük | Davamlılıq kodunun açıqlamasına 46 səhifədə baxın. Davamlılıq haqqında məlumat www.enzazaden.com. ▢ saytında verilib | ▢ isidilən şüşə istixana | ▒ isidilməyən polietilen örtüklü istixana| açıq sahə.

Xiyar

Sığallı qısameyvəli xiyarlar 8-12 sm

Oguz F1

Çox keyfiyyətli meyvələri var və yüksək məhsuldardır. Fəal yan zoğlar əmələ gətirən yığcam buğumaraları olan açıq tipli güclü bitkidir. Aşağı temperatur şəraitində əla boy atır və inkişaf edir. Mütəmadi meyvə formalaşdırır. Hər buğumda 2-3 meyvə formalaşdırır.Birinci və ya ikinci dövriyyədə becərmək üçün tövsiyyə edilir. Meyvələri tünd yaşıldır, uzunluğu 8-10 sm. Əla dadı var. Stres şəraitlərinə yüksək davamlılıq göstərir. Meyvələri asan daşınılandır.

Picolino F1

Tezyetişən yüksək məhsuldar hibriddir. Qüvvəli bitkidir, yaxşı balanslaşmışdır, fəal yan zoğlar əmələ gətirə bilir. Buğumda 3-4 sığallı, tünd yaşıl, 12 sm uzunluqda meyvə formalaşdırır. Meyvələri əla keyfiyyətli, həmişə silindr formasında, tünd yaşıl, parlaqdır. Çox yüksək standard məhsul çıxışı var. Xəstəliklərə qarşı kompleks davamlılığı var. Birinci və ikinci dövriyyədə torpaq istixanalarda becərilmək üçündür.

Qısameyvəli sığallı xiyarlar 16-20 sm

Melen F1

Enza Zaden seleksiyasının ən plastik hibridlərindən biridir. Yığcam yan zoğları və qüvvəli kök sistemi var. Hətta stress şəraitlərdə müxtəlif növ istixanalarda əla nəticə göstərir. Erkən meyvə verməyə başlayır və yüksək temperatura yaxşı uyğunlaşır. Meyvələri çox keyfiyyətlidir, uzunluğu 17- 19 sm. Buğumda 1-3 meyvə formalaşdırır. Yüksək standart məhsul çıxışı var. Düzənli meyvə verimi və xəstəliklərə qarşı kompleks davamlılığı var. Birinci və ikinci dövriyyədə şüşə və polietilen örtüklü istixanalarda becərilmək üçün uyğundur.

Minmax F1

Qüvvəli bitkisi və orta dərəcədə yan zoğlar əmələ gətirən yeni hibriddir. Xüsusilə temperatur oynamaları müşahidə edilən stresli hava şəraitində becərmək üçün uyğundur. Buğumda 2-4 meyvə formalaşdırır. Meyvələri tünd yaşıl, sığallı, düzənli, uzunluğu 16-18 sm. Polietilen örtüklü istixanalarda becərilmək üçündür.

Melen F1

Hibrid	Davamlılığı		Yetişkənliyi	Bitkinin habitusu	Meyvənin uzunluğu, sm	İstehsal növü	Qeyd
	HR	IR					
Sığallı qısameyvəli xiyarlar 8-12 sm							
Oguz F1		CMV/CVYV/Px	tezyetişən	güclü	8-10	▢	Məhsuldardır və meyvələri keyfiyyətlidir.
Picolino F1	Cca/Ccu	CMV/CVYV/Px	tezyetişən	qüvvəli	12	▢	Çox düzənli meyvələri var.
Qısameyvəli sığallı xiyarlar 16-20 sm							
Melen F1	Cca/Ccu	CMV/CVYV/Px	tezyetişən	güclü	17-19	▢	Etibarlı plastik hibriddir.
Minmax F1	Ccu	CMV/CVYV/Px	tezyetişən	qüvvəli	16-18	▢	Temperatur oynamalarına davamlıdır.

HR: High Resistance – yüksək dərəcə davamlılığı | IR: Intermediate Resistance – orta dərəcə davamlılığı | Davamlılıq kodunun açıqlamasına 46 səhifədə baxın. Davamlılıq haqqında məlumat www.enzazaden.com. ▢ saytında verilib | ▢ isidilən şüşə istixana | ▒ isidilməyən polietilen örtüklü istixana| açıq sahə.

Xiyar

Cedrik F1

Tumi F1

Kornişon xiyarlar

Bjorn F1

Yüksək intensivliklə meyvə formalaşdıran tezyetişən hibriddir. Yan zoğlarının ləng inkişafı ilə fərqlənir, bu da bitkiyə qulluğu asanlaşdırır. Buket tipli çiçəklənən hibriddir, hər yarpaq qoltuğunda 3-4 meyvə əmələ gətirir. Məhsulun başlıca hissəsi əsas gövdədə yetişir, meyvələr bütün uzunluq boyunca eyni irilikdə, vegetasiya müddəti ərzində eyni formada olur. Artıq yetişdikləri zaman formasını itirmir. Meyvələri stabil saxlayır və temperaturun aşağı düşməsi və ya işıqlanma yetərsizliyi şəraitində yaranan təzyiqdən yumurtalıqları atmır. Davamlılığı və daşınmağa dayanıqlılığı bu hibridin ən yaxşı cəhətləri olaraq bilinir. Polietilen örtüklü istixanalarda birinci və ikinci dövriyyədə yetişdirilməsi məsləhət görülür.

Cedrik F1

Çox tezyetişən hibriddir. Qısa yan zoğları, və inkişaf etmiş kök sistemi olan balanslaşmış açıq tipli güclü bitkidir. Buğumda 2-4 meyvə formalaşdırır. Meyvələri silindir formalı, həmişə tünd yaşıl, zolaqsız və ya ağ ucluqsuz, uzunluğu 12-14 sm, yığımı gecikdirəndə «boçkayabənzər» olmurlar. Meyvələri son dərəcə uzun müddət saxlanır və gözəl daşınır. Birinci və ikinci dövriyyədə şüşə və polietilen örtüklü istixanalarda becərilmək üçün və həmçinin açıq sahə üçün uyğundur.
İsidilən istixanalarda ən erkən əkin üçün yararlıdır.

Sigurd F1

Stresə davamlı tezyetişən uzun müddət meyvəverən hibriddir. Balanslaşmış açıq tipli bitkidir. Buğumda 2-3 meyvə formalaşdırır. Meyvələri cəlbedici yaşıl rəngli, iri tikanlı, silindir formalıdır, uzunluğu 12 sm. Əlverişsiz hava şəraitində belə becərildikdə mükəmməl əmtəəlik görünüşünü saxlayır. Uzaq məsafələrə əla daşınır. Birinci və ikinci dövriyyədə şüşə və polietilen örtüklü istixanalarda becərilmək üçün və həmçinin açıq sahə üçün uyğundur.

Tumi F1

Faal yan zoğlar əmələ gətirən yığcam buğumaraları olan güclü bitkidir. Aşağı temperatur şəraitində əla boy atır və inkişaf edir. Mütəmadi meyvə formalaşdırır. Buğumda 1-2 meyvə formalaşdırır. Tünd yaşıl tikanlı meyvələrinin uzunluğu 12 sm. Yüksək məhsuldar və keyfiyyətli meyvələri var. Birinci və ikinci dövriyyədə becərilmək üçündür.

Otameyvəli seyrək tikanlı xiyarlar 20-24 sm (amerika slayseri)

Corinto F1

Yüksək məhsuldarlıq potensialı olan yeni tezyetişən hibriddir. Orta intensivliklə yan zoğlar əmələ gətirən açıq tipli güclü bitkidir. Yüksək plastikliyi ilə fərqlənir. İsti şəraitdə əla meyvə formalaşdırır. Silindir formalı, tikanlı, tünd yaşıl meyvələrinin uzunluğu 20-22 sm. Meyvələrinin cəlbedici əmtəəlik görünüşü var, çox yaxşı saxlanılır və asan daşınılır.

Ortameyvəli sığallı xiyarlar 22-25 sm

Tristan F1

